## Kitbın adı: Şəhid Nəvvab Səfəvi xatirələr güzgüsündə

Müəllif: Əli  Əkbər

Mütərcim: Əhməd Təqi

## Seyid Müctəba Nəvvab Səfəvinin həyat xronologiyası

Hicri-şəmsi 1303 (miladi 1924): Tehranın Xaniabad məhəlləsində təvəllüd

1935-1936:  Nəvvabın atası Seyid Cavad Mirlövhinin həbs olunması

1939-1940:  Almanların Tehrandakı sənaye məktəbində təhsil

1941: Din təhsili üçün Nəcəfə səfər

1945: Bir neçə aylıq həbs

1947: Xanım Nəyyirətus-sadat Ehtişam Rəzəvi ilə nikah

1948: Universitetdə şaha qarşı terror və Nəvvabın gizlənməsi

1950: İslam Fədailərinin bəyanat kitabının nəşri

1951: Müsəddiqin baş nazir olmasından bir neçə ay sonra həbs

1952: Zindandan azadlıq

1953: Beytul-müqəddəsə, İraq və Misirə səfər

1956, 18 yanvar: dostları ilə birlikdə həbs olunub, şəhadətə qovuşmaları

## Kərbəlaya doğru piyada

*Əllamə Cəfəri*

Şəhid Nəvvab ilə birlikdə Nəcəf Elm Hövzəsində Şeyx Mürtəza Taliqaniyə şagirdlik edir və Əllamə Əminidən dərs alırdıq.

Bir gün Şəhid Nəvvab mənə təklif etdi ki, İmam Hüseynin (ə) ziyarəti üçün piyada Nəcəfdən Kərbəlaya gedək. Mən qəbul etdim və həmin gün günortadan sonra yola düşdük.

Deməк olar, hava qaralmışdı, şəhərdən hələ bir neçə kilometrdən artıq uzaqlaşmamışdıq ki, çöl ərəblərindən olan boylu-buxunlu bir kişi qarşımızı kəsdi və kobud səslə "dayan" deyə əmr etdi. Mən ərəbin kəmərinə bağladığı xəncəri görüb, çox qorxdum, Nəvvab isə sakit idi.

Ərəb bizə hədə-qorxu gəldi ki, pullarımızın hamısını ona verək. Mən ərəbin dediklərini yerinə yetirmək istəyirdim ki, qəfildən Şəhid Nəvvab olduqca çevik hərəkətlə ərəbin xəncərini kəmərindən çəkib, onun boğazına dayadı və dedi: “Allahla ol, Allahdan qorx və pisliklərdən əl çək.”

Nəvvabın çevikliyi və şücaəti məni heyrətləndirmişdi.

Ərəb bizi öz çadırına dəvət etdi. Nəvvab dərhal qəbul etdi. Mən bir daha təəccübləndim ki, Nəvvab bir neçə dəqiqə öncə bizi öldürmək istəyən birinin dəvətini nə üçün qəbul edir? Bunu onun özünə də dedim, mənə belə cavab verdi: “Bunlar ərəbdirlər, qonağa dəyər verirlər, bizimlə işləri olmaz.”

Nəvvabla birlikdə ərəbin çadırına getdik. Nəvvab rahat yatdı, mən isə ərəbin başımıza bir iş açacağından qorxub səhərədək oyaq qaldım . Nəvvab gecə yarı yataqdan qalxıb, namaza başladı. Mənəviyyat dolu avazla raz-niyaz edirdi. Biz ertəsi gün Kərbəlaya yola düşdük.

## Biz varıq!

“Huvəl-Əziz”, O izzətlidir!

Biz diriyik və intiqam alan Allah hər an oyaqdır. Uzun illərdir, qara pərdələr arxasında, zülm, xəyanət, oğurluq səngərlərində müxtəlif ad və rənglərdə gizlənən xudbin şəhvətpərəstlərin barmaqlarından çarəsizlərin qanı axır...

Vay olsun! Ey həqiqəti gizlədən və haqqı tapdayan xainlər! Ey rəngə bürünmüş münafiqlər! Biz azadıq, ayıqıq, bilirik, Allaha imanımız var və qorxmuruq.

“Qəlbi eşq ilə dirilən heç zaman ölməz,

Bizim əbədiyyətimiz aləmə yazılıb.” (Şeirdən bir parça)

Din adıyla dinə və Qurana nizələr sancdılar, oğurluqlar pak, haramlar halal oldu, yoxsulların çarəsizliyinə mərhəmət göstərmədilər, Huseynin (ə) müqəddəs qanı üzərinə torpaq səpdilər...

Ey ləyaqətsiz canilər! Siz şübhəli pərdələr arxasında gizlənmiş özünüzü, şəxsiyyətinizi başqalarından daha yaxşı tanıyırsınız, öz cinayətlərinizdən tam dəqidliklə məlumatınız var. Biz canından keçmiş azad insanlarıq, qorxumuz yoxdur və köməyə ehtiyacsızıq.

Macal tapacağı zaman imanın gücündən qorxun... Candan keçmək bizim üçün şirindir. Lakin haqqımızı geri alacağıq.

İllərdir, qara zəncirlər İslam vilayətlərini bir-birindən ayırıb. Bu zəncirləri toxuyanlar müsəlmanların daxilində  qardaşlıq və vəhdət bağını qırmaqla, fəsad, əxlaqsızlıq, cəhalət, imansızlıq və ixtilaf zəhəri səpməklə məşğuldurlar...

Ey dünya müsəlmanları! Ayağa qalxın, ayılın, dirilin ki, öz haqqlarınızı geri alasınız.

"Rəbbimiz Allahdır deyib, sonra qiyam edənlər, üçün nə bir qorxu var, nə də qəm-qüssə." (Qurani-kərim)

Allah dözümlülərlədir, Allah intiqam alandır! "Vallahul-muntəqim".

İslam Fədailəri tərəfindən

Nəvvab Səfəvi

Bu bəyanatın nəşr edilməsindən sonra İslam Fədailəri  öz varlığını elan etdi və rəsmi olaraq siyasi mübarizəyə qoşuldu.

## Nəyyirətüssadat Ehtişam Rəzəvi ilə nikah

*Nəyyirətüssadat Ehtişam Rəzəvi*

1948-cı ilin ilk ayları idi. Atam (Seyid Əli Nəvvab Ehtişam Rəzəvi) dedi: "Cənab Nəvvab səninlə söhbət etmək istəyir." O vaxtadək mən heç bir naməhrəmlə söhbət

etməmişdim. Bilirdim ki, gələcəkdə onunla ailə qurmalı olacam və belə bir şəxslə danışmaq mənim üçün çox çətin idi.

O ruhani geyimində gəldi. Mən salam verdim. Bir tərəfdən utanıb, xəcalət çəkirdim, digər tərəfdən də fikirləşirdim ki, danışmasam, ağa elə biləcək heç nə bilmirəm.

Cənad Nəvvab söhbətə başladı, dedi ki, mən məhərrəm və səfər aylarından sonra ağa Nəvvaba (atamı nəzərdə tuturdu) yaxın olmaq istəyirəm. Bu sözdə məqsədi mənimlə evlənmək  idi.

O atamın kitablarının arasından bir kitab götürüb, qarşıma qoydu və dedi: "Oxuyun!" Oxumasaydım, savadsız olduğumu fikirləşəcəkdi. Xəcalət çəkə-çəkə oxumağa başladım. O məndən başqa məsələlər haqqında da soruşdu və cavablarıma təəccübləndi.

Üzümü çox örtmüşdüm. O soruşdu: "Siz nə üçün üzünüzü bu qədər örtmüsünüz?" Dedim: "Hər bir müsəlman qadının vəzifəsidir ki, özünü naməhrəm qarşısında örtsün." Dedi: "Mən başqaları ilə fərqliyəm."

Cavab verdim: "Mənim üçün fərqi yoxdur, siz də başqaları kimisiniz." Düşündüm ki, bəlkə məni yoxlamaq istəyir.

Mənə bir çox sözlər dedi və belə buyurdu: “Mən çox təhlükəli yol seçmişəm. Fikirləşirəm ki, İran islam ölkəsi olduğu üçün şah və onun ətrafındakılar getməlidirlər və bu ölkədə İslam hökuməti qurulmalıdır. Mənim hədəfim İslam düşmənlərini məhv etmək, Allahın göstərişlərini və hökmlərini icra etməkdir. Bu yolda İslam düşmənlərinin məni şəhid etmələri mümkündür.”

Dedim: “Ağa, mənim atam da cavan yaşlarından mübarizə aparıb və onun mübarizəsinin nəticəsi yaralı bədən, həbsxana və sürgün olub. Mən belə bir atanın məktəbində böyümüşəm. Bu yolda sizinlə birgə olmağa çalışacağam.”

Aramızda bir çox söhbətlər oldu. Sonradan atam ondan mənim barəmdə fikrini soruşduqda belə demişdi: “O çox ağıllıdır və çox şeyləri dərk edir.”

Bir neçə dəfə görüşdükdən sonra ailə həyatı qurduq, toy mərasimimiz 1948-ci ildə Qumda keçirildi.

## Nüfuzlu və qeyri-adi şəxs

*Böyük Məqamlı Rəhbər*

Böyük Rəhbər Şəhid Nəvvabla ilk görüşünü belə xatırlayır:

Nəvvab Məşhəddəki bir mədrəsədə söhbət etməli idi. Mən də o mədrəsəyə getdim, uzaqdan onun gəldiyini gördüm. Səkidə bir yarımdairə əmələ gəlmişdi, Nəvvab onun ortasında idi, ətrafı insanlarla dolmuşdu. İnsanlar onu görmək üçün bir-birlərinin arxasından boylanırdılar.

Onun arxasınca çox sayda insan hərəkət edirdi. Mən həmin şəxslərin arasına daxil olub, özümü onun yaxınlığına çatdırdım. Onun hərəkətləri məni özünə cəzb etmişdi.

Nəvvab yol gedə-gedə şüar verirdi. Adi yol getmirdi. Yol boyu moizə edirdi: “Müsəlman qardaşlar, qeyrətli qardaşlar! Gərək İslamı hakim edək.” Və bu kimi sözlər deyirdi.

Yol boyu daim uca səslə şüar söyləyirdi. Qalstuk vurmuş şəxslərlə rastlaşdıqda deyirdi: “Bunu yadlar bizim boynumuza asıb. Qardaş, onu boynundan aç!” Panama qoymuş şəxlərə isə deyirdi: “Bu papağı yadlar başımıza qoyub, qardaş, qardaş!" Mən bəzi insanları görürdüm ki, Nəvvabla qarşılaşdıqda, onun səsini eşitdikdə, əlinin işarəsini gördükdə, başlarından panamanı götürüb, əzib ciblərinə qoyurdular. Yəni onun sözü bu qədər nüfuzlu idi.

Mən doğrudan da bütün ömrüm boyu Nəvvab qədər sözündə təsir, nüfuz olan az şəxs görmüşəm. Çox qəribə insan idi, sanki bir od parçası idi.

Onunla birlikdə mədrəsəyə çatdıq. Söhbətə başladı, bütün varlığı ilə söhbət edir, şüar verirdi. Söhbət başa çatdıqdan sonra günorta olmuşdu. O camaat namazı qılmağımızı təklif etdi. Özü qabaqda durdu və gözəl bir camaat namazı qıldıq. Daha sonra Nəvvab getdi və bizim ondan xəbərimiz yox idi. Nəhayət bir gün şəhadət xəbəri Məşhədə çatdı.

## Rıza Xanın cənazəsi

Rıza xanın cənazəsini Nəcəfə aparıb, orada dəfn etmək istəyirdilər. Gizlicə, bəzi xəbərsiz və laqeyid şəxslərdən imza almışdılar ki, onlar şiə ölkəsinin padşahının Nəcəfdə dəfn olunmasına razıdırlar.

Nəvvab bu məsələdən xəbər tutan kimi Nəcəf tacirlərindən olan  Möhsün Sülasinin oğlunun yanına getdi. Rıza xanın Nəcəfdə dəfninə razılıq vermiş şəxslərin imzaları onun yanında idi. Nəvvab onun səs-küyünə yığışmış şəxslərin qarşısında həmin kağızı cırdı və söhbət bağlandı.

Əgər Nəvvabın ayıq-sayıqlığı olmasaydı çox güman ki, Rıza xanın cənazəsi Nəcəfdə dəfn olunacaqdı və xalq xəbər tutanda artıq iş-işdən keşmiş olacaqdı. İraq şah rejimi İranın şah rejimi ilə dost idi və onların hər ikisi müstəmləkəçi İngiltərənin siyasətinə tabe idilər. Bu səbəbdən İraq dövləti kimsənin müxaliflik etməsinə imkan verməyəcəkdi.

Daha sonra belə qərara gəldilər ki, Rıza xanın cənazəsini Quma aparıb, orada dəfn etsinlər. Yenə də İslam Fədailəri buna mane oldular.

Əli Dəvvani  belə deyir: “Dostlarımdan biri ilə Qumun tanınmış vaizi Seyid Mürtəza Burqeinin evinə getdik. O Qumun rəsmilərindən gəlmiş bir məktub göstərdi. Məktub Tehrandan gəlmişdi və Şahın öz xətti ilə yazılmışdı: “Əla həzrətin cənazəsin Quma gətirirlər, mərhumun xətm məclisində moizə etməyinizə minnətdar olacağam.”

Daha sonra bir “Huma” siqaretinin qutusunu göstərdi və dedi ki, görün bura nə yazılıb?

Mərhum Seyid Əbdül-Hüseyn Vahidi qələm ilə siqaret qutusunun arxasına belə yazmışdı: “Seyid Mürtəza Burqei, əgər cəhənnəm əhli olan quldur Rıza xanın xətm məclisində minbərə çıxsan, qarnını yırtacağam!” Ondan soruşdum ki, nə edəcəksən?

Dedi: “Bu sözdən sonra minbərə çıxmaq olarmı? Sizə deyirəm bunlar o işi görəcəklər! Bir də gördün minbərdən düşəndə töküldülər üstümə, tikə-tikə etdilər. Bunların işlərindən baş açmaq olmur.”

Evə qayıtdıqda baş verənləri Vahidiyə danışdım, orada olan bir neçə nəfərlə birlikdə gülməyə başladıq. Lakin Vahidi dedi: “And olsun cəddimə əgər minbərə çıxsa qarnını yırtacağıq.”

İslam Fədailərinin nəzarəti nəticəsində Rıza xanın cənazəsi gətirilən yolda hətta pəncərənin arxasından tamaşa edən bir ruhani belə görünmürdü.

## Əhməd Kəsrəvinin qətli

*Əsədullah Səfa*

Əhməd Kəsrəvi əvvəllər ruhani libasında idi. O Nəcəfdə dərs oxumuşdu. Lakin Tehrana qayıdıb vəziyyəti gördükdə, tədricən ruhani libasını çıxartdı, saqqalını qırxdı, kostyum geydi və qalstuk vurdu.

O Firdovsi xiyabanının əvvəlində bir bina alıb fəaliyyətə başladı. Əvvəl Bəhailik adlı bir jurnal çap etdi. Həmin jurnalda bəhailiyi sərt tənqid etdi. Daha sonra Sufilik adlı jurnal çap etdi və bu jurnalda sufilərin əqidələrinə və mərasimlərinə hücum etdi. Bu iki jurnaldan sonra insanların zehnində özünə yer açdı. Üçüncü jurnalın adı isə Şiəlik oldu.

O öz jurnalında yazırdı ki, məsələn Məfatihdə yazılanlar düzgün deyil, yaxud Peyğəmbər və Əhli-beyt (Allaha pənah) 1400 il öncəyə aid insanlardır və onların sözləri həmin dövrə aiddir. İndiki atom, texnika və inkişaf əsrinə uyğun deyil.

Bu jurnal Şəhid Nəvvabın əlinə keçdi.

Əsədullah Səfa deyir: "Şəhid Nəvvabla birlikdə həbsdə olanda, bir dəfə ona dedim: "Sizdən bir neçə şey soruşmaq istəyirəm, icazə verirsinizmi?! Dedi: "Ürəyin nə istəyir, soruş." Ondan istədim ki, Kəsrəvinin qətli əhvalatını mənə danışsın.

Mərhum Nəvvab dedi: "Mən həmin Şiəlik jurnalını Ayətullah Hacı Ağa Hüseyn Quminin hüzuruna apardım. O Nəcəfin böyük mərcələrindən idi. Ona dedim: "Hacı ağa, əgər bir şəxs bu yazılanlara inansa, bu yazılanlar onun əqidəsi olsa, hökmü nədir?" Hacı ağa dedi: "Mənə bir həftə vaxt ver."

Bir həftədən sonra Hacı ağa mənə dedi: "Hər kəs bu yazılanlara inansa, bu yazılanlar onun əqidəsi olsa, bunları bilərəkdən, agahlıqla yazsa, onun qətli hər bir müsəlmana vacibdir."

Mən oradan Ayətullah Kaşaninin yanına getdim. O məni səbrə dəvət etdi. Ayətullah Taliqaninin vasitəsi ilə bir silah əldə etdim. Silahı aldıqdan sonra onu kəmərimə qoyub, Kəsrəvinin dəftərxanasına doğru yola düşdüm.

Kəsrəvi bir neçə cavan üçün söhbət edirdi. Söhbəti başa çatandan sonra mənə dedi: “Seyid, mənimlə işin var?” Dedim, bəli. Bir otağa keçib oturduq.  Jurnalında yazılanları ona xatırlatdım. O, jurnalda yazılanları təsdiqlədi.

Bir qədər söhbət etdikdən sonra mənə dedi: “Seyid, əgər iqtisadi baxımdan vəziyyətin yaxşı deyilsə, işsizsənsə, sənə iş düzəldərəm. Nə istəyirsən?

Dedim: “Bu dediklərinin heç biri mənim dərdimə dəymir.”

Dedi: “Elə isə, sənə başqa söz deyim, yaxına gəl.”

Məni bir şkafa tərəf apardı, qapısını açıb mənə dedi: “And olsun cəddinə, bir daha gəlib mənə mane olsan, bununla cavabını verəcəm.” Şkafda silah olduğunu görüb, güldüm.

Dedi: “Nə üçün gülürsən?” Dedim:” Elə mən də bunu sənə deməyə gəlmişdim. Bugün üçüncü gündür, sabah dördüncü gün, cümə də heç, şənbə sübh “İttilaat” və “Keyhan” qəzetlərində yazırsan ki, mən Seyid Əhməd Kəsrəvi səhv etmişəm, Şiəlik jurnalında yazdıqlarımı, səhv edib yazmışam, qələt edib yazmışam. Əgər bunu yazıb, nəşr etsən, heç. Yox əgər bunu etməsən, sənin cavabını şkafa qoyduğunla verəcəm. Xudahafiz.”

Pilləkənlərdən aşağı düşüb dəftərxanadan çıxdım. Şənbə günü qəzetləri alıb baxdım, gördüm uyğun mövzuda heç nə yazılmayıb. Əvvəlcədən Kəsrəvinin evinin yerini öyrənmişdim. Tək-tənha getdim. Evə çatanda, gördüm qapını açıb, evdən çıxır. Məni görən kimi əlini silahına atdı. Mən də silahı kəmərimdən çıxartdım və ona tərəf üç atəş açdım. Yerə yıxıldı."

Qeyd etməliyik ki, bu qarşılaşmada Kəsrəvi yaralanır, ölmür. Daha sonra Şəhid Hüseyn İmami onu öldürməyə müvəffəq olur.

## Atanın maneçiliyi

*Nəyyirətüssadat Ehtişam Rəzəvi*

Cənab Nəvvab təqib olunduğu vaxt, gizli yaşayırdı. Bizim evimiz nəzarətdə olduğu üçün bəzən İslam Fədailərindən hansısa birini göndərirdi ki, məni onun yanına aparsın.

Bir dəfə jurnallardan biri Nasir Fəxr Arayinin arvadı ilə güman ki, onun məşuqəsi olan birinin şəklini çap etdi və bu barədə bəzi sözlər yazdı. Atam həmin jurnalı cənab Nəvvabın göndərdiyi şəxsə verdi və dedi: "Cənab Nəvvaba deyin ki, həyat yoldaşının onun yanına aparılması üçün bu qədər təkid etməsin. Ona deyin ki, öz həyat yoldaşının da şəklinin jurnalda çap olunmasını istəyərmi?" Atamın bu sözü

cənab Nəvvaba ağır gəldi. Topxana meydanından piyada bizim evimizə kimi gəldi. Çox əsəbləşmişdi. O həmişə atama böyük hörmət göstərərdi və ona qarşı şəfqətli idi. Bu dəfə əsəbi halda dedi: “Cənab Ehtişam mən sizin şücaətli olduğunuzu düşünürdüm. Bu qədər qorxaq olduğunuzu bilmirdim! Gəlmişəm görəm, bu alçaqlardan hansı biri məni tutmaq istəyir? Nə üçün yoldaşımı yanıma göndərmədiniz? Mənim yoldaşımın şəklini çap etməyə kim cürət edə bilər?”

Atam təqib altında olan Cənab Nəvvabın vəziyyətini nəzərə alaraq onunla soyuqqanlı, aram söhbət etdi. Cənab Nəvvab gedərkən dedi: “Mən yoldaşımın dalınca adam göndərəcəm, onu mənim yanıma göndərin!” Günün gündüz çağı, əsəbi halda evdən çıxdı.

Atam cənab Nəvvabın rəftarından çox narahat olmuşdu. Mənə dedi: “Mən yenə də səni göndərməyəcəm. Cənab Nəvvab bu işin aqibətindən agah deyil.” Mən iki yol ayrıcında qalmışdım, atama dedim: “Ağacan, əgər məsləhət bilirsinizsə, istixarə edin, Allahdan məsləhət istəyin. Əgər Allah məsləhət bilsə, siz icazə verib, məni göndərin.” Atam istixarə etdi və yaxşı gəldi.

Gecə saat 12-də cənab Seyid Hüseyn İmami İslam Fədailərindən iki nəfərlə birlikdə cənab Nəvvab tərəfindən maşınla mənim dalımca gəldilər. Atam məni cənab Nəvvabın yanına aparmalarına icazə verdi və mən onlarla getdim.

## Fərqli və cazibəli şəxs

*Seyid Əli Mirdamadi*

Günorta idi, məktəbdən evə gəldim. Anam dedi qonağımız var. Dedim Haradadır?

Dedi ki, qonaq otağındadır.

Dedim: Kimdir?

Dedi: Fatimə (s) övladlarından bir seyid. Otağa keçdim, gördüm cavan bir seyid yaşıl şal bağlayıb, oturacağın aşağısında əyləşib və Quran oxuyur. Salam verdim. Seyid ayağa qalxdı, məni qucaqladı, öpdü və öz yanında oturtdu.

Məni o qədər özünə cəlb etmişdi ki, onun hal-əhval soruşmağına cavab verə bilmədim. Çöhrəsi, ədəbi, sözləri sehirləmişdi məni.

Deyirdi: "Əmioğlu, İslama yar ol. Ümid edirəm ki, İmam Zamanın (ə) vəfalı əsgərlərindən olasan. Ağanın kənarında şəhadət çox gözəldir."

Onun sözləri mənim üçün yeni və ləzzətli idi. Elə istəyirdim ona tamaşa edəm və o danışsın. O Allah dininin tənhalığından, İslam düşmənlərinin ilahi hökmlərə hücumundan və Quranın müdafiəsi yolunda fədakarlığın, candan keçməyin zəruriliyindən danışırdı.

O danışırdı və mən ona tamaşa edərək, ona valeh olmuştum. Deyirdi: “Mənfur Pəhləvi ailəsi rəhimsizcəsinə Allah dinini nizələyirlər. Müsəlmanlar da qəflət yuxusunda yatıblar.”

Öz-özlüyümdə dedim: “İlahi, bu kimdir və nə danışır? Bir tələbənin, ruhaninin açıq-aşkarcasına siyasətə müdaxilə etməsi! O şahı elə tənqid edirdi ki, sanki kimsə ona zəmanət vermişdi!”

Məktəbdə bizə demişdilər ki, din siyasətdən ayrıdır, ruhaniyyətin siyasətə qarışmağa haqqı yoxdur və ruhanilər yalnız məscidlərdə şəri məsələləri açıqlamalıdırlar. Öz-özlüyümdə düşündüm: “Əgər belədirsə, bəs bu seyid kimdir və nə deyir? Yəqin, bu başqalarından fərqlidir, ayrıdır!”

O hakimiyyətin cinayətlərindən danışdı. Məndən soruşdu: Əmioğlu namazını qılmısan?

Dedim, yox.

Dedi: Dəstəmaz al, birlikdə qılaq.

Daha sonra azan verdi. Gözəl səsi ilə verdiyi azan məni yerimdə dondurdu, dəstəmaz almağa gedə bilmirdim. Lakin namaz qılmaq lazım idi, camaat namazı, və məni özünə cəzb etmiş bir şəxsə iqtida edərək!

Namaza başladı, mən arxasında tək-tənha durmuşdum. Namazın qunutunda Allahla, məbudla eşqlə, göz yaşı axıdaraq elə raz-niyaz edirdi ki, məndə böyük tərpəniş yarandı. İlahi, bu kimdir və haradan gəlib?

Həmin halda idim ki, atam məsciddən gəldi. Tələsik qarşısına getdim, heç nə deməmiş qonağın adını soruşdum. Atam dedi: "O Seyid Müctəba Nəvvab Səfəvidir."

## Şərab zavodu

Bir gün Nəvvab şərab zavodunun yanından keçirdi. Zavoddan qalxan fit səsini eşitdikdə, soruşdu: "Bu nəyin səsidir?" Ona dedilər ki, bu şərab zavodunun fit səsidir.

Bu onu çox narahat etdi, qəmləndirdi. Ağlayıb, dedi: "İslam ölkəsində şərab zavodu var!"

Həmin günün sabahı dövrün Baş naziri doktor Müsəddiqə məktub göndərdi: "Bu zavodu tətil et və şərab mağazalarını bağla." Nəvvab Ayətullah Kaşaniyə də etiraz edib dedi ki, siz gərək verdiyiniz sözlərin üstündə durasınız.

O belə bir bəyanat vermişdi: "Müsəddiq vəzifəyə gələrkən, İslam hökmlərinin icra olunması üçün, ona kömək etdik. Rəzmaranı öldürdüyümüz zaman və neft

milliləşdikdə, hökumət bizə söz verdi ki, İslam hökmlərini icra edəcək. Nə üçün sözlərinə əməl etmədilər?" Nəvvabın mesajı qarşısında Doktor Müsəddiq ilə, Ayətullah Kaşani oxşar reaksiya göstərirdilər. Müsəddiq demişdi: "Biz sonadək vəzifədə olmaq fikrində deyildik. O bu istəyini bizdən sonrakı hökumətlərdən istəsin." Ayətullah Kaşani də zamanın tələblərinə uyğun fikirləşirdi və belə demişdi: "Hal-hazırda bu cür işlər üçün uyğun şərait yoxdur."

Daha sonra Nəvvab dedi ki, əgər İslam hökmlərini icra etməsəniz, mən sizin əleyhinizə qiyam edəcəm.

Bu səbəbdən onunla Müsəddiq və Ayətullah Kaşani arasında narazıçılıq yarandı.

## Azan vermək

Şəhid Nəvvab göstəriş vermişdi ki, bizim qardaşlarımız günorta olduqda, harda olsalar azan desinlər. O deyirdi: "Azan vaxtı "Allahu əkbər" şüarı İranın bütün şəhərlərində, küçə və xiyabanlarında ucalmalıdır."

Bir dəfə məclislərdən birində bu mövzunu xatırlatdı, sonra birini ayağa qaldırıb dedi: "Siz azan deyirsiniz?" O dedi: "Xeyr, ağa."

Ağa buyurdu: Nə üçün?

O dedi: Üzüm gəlmir

Ağa buyurdu: Sizə bir sualım var, nə satırsınız?

Dedi: Xiyar, badımcan, boranı və...

Ağa sözünə davam etdi: Satanda qışqırırsan?

O dedi: Bəli ağa. Ağa yenidən dedi: Həmin fəryadlarından birini burada çəkə bilərsən?

O dedi: Xeyr, ağa. Üzüm gəlmir.

Ağa soruşdu: Nə üçün?

Dedi: Axı burada mənim malım yoxdu satmaq üçün. Mallarımı satmaq üçün qışqırıram. Məsələn, qışqırıram “xiyar 1 qranadır”. Lakin burada bir şeyim yoxdur ki, onu satmaq üçün qışqıram.

Bu sözdən sonra ağa dedi: Bəli, elə isə de ki, mənim dinim yoxdur. Bu qədər güclü, qüvvəli bir cavan "Allahu-əkbər", "Əşhədu ən la ilahə illəllah" deməyə xəcalət çəkir, xəcalət çəkir ki, desin: Ey quşlar, ey heyvanlar, ey səma, ey yer mən şəhadət verirəm ki, Allah hamıdan üstündür.

Lakin bu qədər böyük olmasına baxmayaraq “Xiyar bir qrana” deyib, qışqırmağa xəcalət çəkmir. Görürsən özünü necə kiçiltmisən?! Azan vaxtı isə özünü böyük sanırsan.

“Allahu-əkbər” deyə fəryad etdikdə Allahdan başqa hər şeyi kənara qoyursan.

## Rəzmaranın qətlə yetirilməsi

*Abdullah Kərbasçiyan*

Rəzmara əksər işlərdə güzəştə gedən şəxs idi. O parlamentdə İran xalqını təhqir edərək deyir: “İran xalqı aftaba da düzəldə bilmir.” O Bu sözü ilə edam hökmünü imzaladı.

Bu hadisədən sonra milli cəbhənin və İslam Fədailərinin nümayəndələrinin iştirak etdiyi bir toplantı təşkil olundu. Həmin toplantıda mərhum Nəvvab dedi: “Əgər Rəzmara olmasa, İslam hökmləri icra olunacaq. Qəbul edirsiniz?” Hamı yekdilliklə qəbul etdi və mərhum Nəvvab dedi ki, siz bu məsələni başqalarına da çatdırın. Daha sonra Rəzmaraya xəbər göndərdilər ki, üç gün ərzində getsən, getmisən, getməsən səni göndərəcəyik.”

O dövrdə mərhum Xəlil Təhmasibinin parlamentin arxasında yerləşən dülgərlik sexi var idi. Biz onunla dost idik. Bir gecə mənim yanıma gəlib, dərdləşməyə başladı:

“Bilmirəm nə edim, bu alçağa əlim çatmır.” Mən ona dedim: “Şah (İmam) məscidində kökumətin bir yas məclisi var o bu sözü eşidən kimi güldü, başını yuxarı qaldırdı, sonra səcdə edib, dedi: “Aldım ağa, bu gecə rahat yatacam.”

Bundan əvvəl Nəvvaba belə demişdim: “Mənim jurnalist vəsiqəm var, Rəzmaranın otağına qədər gedə bilərəm, əgər icazə versəniz, yubandırmayaq.” Daha sonra dedim: “Ağa, qoy mən gedim, məsələni həll edim. Usta Xəlil bacarmaz.”

O belə cavab verdi: “Sənin getməyini istəsəydim, çəkinməzdim. Biz bir-birimizlə tam səmimiyik. Sən və Xəlil hər ikiniz mənim üçün bərabərsiniz. Sənin qanın, onun qanından rəngli deyil ki?! Amma sən bu işi görsən, deyəcəklər ki, bunların qüvvəsi başa çatıb, ona görə də yazarlarını qabağa göndərirlər! Hələlik səbr et.” Dedim: “Qorxuram ki, bunlar bugün-sabah ingilislərlə razılaşmaya gəlsinlər.” Dedi: “Nigaran olma, heç nə etməyəcəklər.”

Nəhayət ustad Xəlil Təhmasibi bu tapşırığı öhdəsinə götürdü. Səhər saat 10:30-da Baş nazir Rəzmara bir qrup nazirlərlə birlikdə məscidə daxil olmaq istəyərkən Xəlil Təhmasibi başından və çiyinlərindən üç güllə vurub, onu qətlə yetirdi.

Maraqlıdır ki, Rəzmara qətlə yetirildikdən bir neçə gün sonra parlamentdə İran neftinin milliləşməsi səs çoxluğu ilə qəbul olundu.

## Əxlaq müəllimi

Tehranın cənubunda yerləşən evlərdən birində keçirilən ümumi yığıncaqların birində həmin məhəllənin əhalisindən olan bir şəxs Şəhid Nəvvaba yaxınlaşıb, onu öpdükdən sonra bir sual soruşmuşdu.

İnsanların sayı o qədər çox idi ki, həmin şəxslə onun qarşısında durmuş Şəhid Nəvvab arasında heç bir fasilə yox idi. Elə bir vəziyyət yaranmışdı ki, onların bədənləri bir birinə yapışmışdı və bu vəziyyətdə söhbət edirdilər.

Bir qədər sonra tədricən camaat dağıldı, Nəvvab dostları ilə əyləşmişdi. Məlum oldu ki, onun ayaq barmağı yaralanıb və müalicəyə ehtiyacı var.

Yoldaşları barmağının necə yaralanmasını soruşduqda, məlum oldu ki, həmin şəxs Şəhid Nəvvabla söhbət etdiyi bütün müddət ərzində onun ayağının üzərində durubmuş. Şəhid Nəvvabın ayağında ayaqqabı yox idi, buna görə ayaq barmağı yaralanmışdı.

Onun bu rəftarının səbəbi barəsində maraqlanan dostlarına Şəhid Nəvvab Səfəvi belə demişdi: “Əgər mən ona bir söz desəydim, etiraz etsəydim, bu onun xəcalət çəkməsinə səbəb olacaqdı. Bu isə düzgün deyil, azca ağrıya və barmağımın

yaralanmasına dözmək mənim üçün onun xəcalət çəkməsinə dözməkdən asandır. O çox ixlas və səmimiyyətlə mənimlə görüşüb-öpüşdü və sual-cavab etdi."

## Toy məclisi

*Əbdülqasim Dolabi*

Fatimiyyə günləri idi. Dolab məhəlləsinin sakinlərindən biri toy mərasimi keçirirdi. Çalğıçı gətirmişdi və çalıb-oynayırdılar. Ağa məni çağırıb dedi: "Get Seyid Rzanın çayxanasına və ona de: Seyid, ananın əza günləridi, əgər lotuluq iddiasındasansa, onu indi sübut et. Bu çal-çağır məclisini dağıt."

Mən gedib bu sözləri Seyid Rzaya dedim.

Seyid Rza dedi: Tutaq ki, mən gedib məclisi dağıtdım, hər şeyi bir-birinə vurdum, bəs polisin cavabını kim verəcək? Dedim: Siz özünüz.

Dedi: Xeyr, mən bu işi görməyəcəm.

Geri qayıtdım və baş verənləri ağaya dedim.

Seyid Əbdülhüseyn Vahidi mənim əlimdən tutub, dedi: "Gəl gedək." Birlikdə çayxanaya getdik. Vahidi çayxananın ortasına bir stol qoyub, üzərinə çıxdı və uca səslə dedi: Bilmək istəyirəm ki, lotu, özündən deyən sənsən ya mən? Mən İslam

meydanının lotusuyam. Məntiq başa düşməyənlərin cavabını lotucasına verirəm. Bunların səs-küyun kəsməyə sənin cəsarətin çatmadı, lakin mən bu işi  görəcəyəm.”

Seyid Əbdülhüseyn toy mərasiminə tərəf yola düşdü və biz də onun axrasınca getdik. Seyid Rza da  qızışdı və bizim dalımızca qaçdı, hətta bizdən qabağa keçdi, getdi çalğıçını vurdu, xülasə məclis dağıldı. Polis işçiləri gəldikdən sonra səbəbkarın Şəhid Nəvvab olduğunu bilib, məsələni birtəhər bağladılar.

## Müsəddiq və onun hökumətinin ifşası

Bu bəyanat Məhəmməd Rza Pəhləvi  şah olduqdan sonra Keyhan qəzetində çap edildi:

“Huvəl-Əziz” (O izzətlidir)

“Şah, baş nazir və hakimiyyətdəki məsul şəxslər nə qədər ki, Quran həqiqətləri qarşısında əməli şəkildə təslim olmayıblar və İslamın həyatverici hökmlərini icra etmirlər, onların hakimiyyəti qanuni və legitim deyil.

Allahın əmri bütün əmrlərdən üstündür, Ona itaət hər kəsə itaətdən daha vacibdir, hər kəs əməldə Allahın hökmlərinə müxalif olsa, ona itaət haram və onunla müxaliflik vacibdir.

Mən bu səbəbdən Müsəddiqin dövləti ilə kəskin şəkildə müxalif olmuşam və o öz hakimiyyəti dövründə mənim və (din) qardaşlarımın qorxusundan evinin bir küncündə gizlənirdi, mənimlə razılığa gəlmək üçün bütün vasitələrə əl atırdı. Allahın hökmlərinə təslim olmağa hazır olmadığı üçün məyus olurdu.

Müsəddiqin ən böyük cinayəti İranda Sovet hökumətinin nümayəndələrini dəstəkləməsi, onlara qol-qanad verməsi idi. Pak, müsəlman xalqımızın, zabit və əsgərlərimizin iman ruhu, namusları,  dinə möhkəm bağlılıqları Allahın köməyi ilə onu və rəzalətə qərq olmuş yad köməkçilərini məğlub etdi.

And olsun Məhəmmədin (s) Allahına, əgər Müsəddiqin hökuməti iki gün artıq davam etsəydi və yadpərəstlərin yaltaqlıqlarına son qoyulmasaydı, müsəlman xalqımız qəzəblənib sovetlərin kiçik və böyük nümayəndələrinin damarlarını öz dırnaqları ilə bədənlərindən çıxaracaqdılar və onları qeyrət alovunda yandıracaqdılar.

Rəhim Allah rəhm etdi ki, bəlkə hidayət olub, dini, namusu və vətəni özgələrə satmaq kimi ləyaqətsiz, alçaq işdən əl çəkdilər. Əgər öz hüquqlarını tələb edirlərsə, Əliyə (ə) ardıcıllıq sayəsində və İslam əsaslarına uyğun şəkildə tələb etsinlər; puç, boş vədlər xatirinə namusu, azadlığı və vətəni ləyaqətsiz yadların ayaqları altına atmasınlar...

*Tehran*

*Qüdrətli Allahın köməyi ilə!*

*Seyid Müctəba Nəvvab Səfəvi*

*Hicri-şəmsi, 1332, 6, 3*

## İslam hökmlərinin icraçısı

*Əbülqasim Dolabi*

O dövrdə əksər vaizlər, natiqlər söhbətlərinə qadağa qoyulmaması üçün yalnız tövhiddən danışırdılar. Məsələn Cənab Raşidin çox gözəl nitqi var idi, söhbətləri çox maraqlı idi, lakin buna baxmayaraq söhbətlərinin mövzüsu nəzəri tövhiddən o yana keçmirdi. Portağalı, buğdanı, qarışqanı Allahın necə hikmətlə yaratmasından danışırdı. Şəhid Nəvvab isə belə deyildi.

Bir gün küçədə ikən həmin dövrün tanınmış vaizlərindən biri Nəvvabın evinin yerini soruşdu. Onu ağanın qapısına apardım. Ağa məni göndərdi, çörək və pendir aldım, qonağa səhər yeməyi verdik.

Bu ruhani ağaya dedi: Sizin bu qədər istedadınız heyf deyil?! Siz bir neçə il hövzədə məşğul olsanız, təqlid müctehidlərindən ola bilərsiniz.” Daha sonra ağanı bir xeyli təriflədi, əlbəttə onun bəzi fəaliyyətlərini bir qədər tənqid etdi.

Onun söhbəti başa çatdıqdan sonra, Şəhid Nəvvab buyurdu: “Sənin dediklərin hamısı düz, lakin bir çox istedadlı şəxslərin, böyük yazıçıların qələmə aldıqları cildlərlə kitablar kitabxanalarda bir-birinin üzərinə yığılıb; bu alimlərin yazdıqlarını, istədiklərini həyata keçirən, icra edən biri lazım deyilmi?

Bu kitablarda yazılmış halal-haramları hətta namusumuza da müdaxilə edən bir yığın fəsad əhlinin öhdəsinə qoyduq. Bir gün arvadlarımızın başından çadranı götürürlər, bir gün sənin və mənim başımdakı əmmaməni götürürlər, bir gün Quranı yandırırlar, bir gün də Kəsrəvi peyğəmbərlik iddiası edir və İmam Sadiqin əleyhinə yazır.

Bu  insanlar bizə hökmranlıq etsinlər və biz mədrəsələrdə dərs oxumaqdan başqa bir iş görməyək? Sonra da gəlib mədrəsələrin qapısını bağlayacaqlar. Bütün bunları nəzərə alaraq, icraçı bir şəxsə, kitablarda yazılanları həyata keçirən birinə ehtiyac görmürsünüzmü?”

Şəhid Nəvvabın sözlərindən sonra həmin şəxs donub qaldı. Ağa bir daha ona xatırlatdı: "Sən özün bu qədər hədis və rəvayət oxumusan, onların hansı birini həyata keçirə bilmisən?"

## Şahla görüş

Nəvvab Səfəvinin şahla görüşü var idi. Həmin görüşün baş tutacağı gün qəzetlərdən birində bir şəxsin belə bir iddiası yazılmışdı: "Mən müsəlmanam, lakin İslamda hicab adlı heç bir şey yoxdur."

Nəvvab şahın görüşünə getməmişdən bir qədər öncə saray adamlarından bir qrup şəxs şahın yanına daxil olmağın və onun yanında necə rəftar etməyin qayda-qanunlarını ona öyrətmək istəyirdilər.

Mahmud Cəm belə nəql edir: Ona dedim ki, içəri girəndə bu formada salam ver, şahla aram, sakit danış. Söhbət edərkən əllərini hərəkət etdirmə və aram ol.

Nəvvab bizim ona dediyimiz sözlərdən sonra aramcasına, qətiyyətlə deyirdi: "Özüm bilirəm necə rəftar etmək lazımdır." Nəhayət ona bu barədə çox danışdıqdan sonra, üzündə acı bir ifadə yaradıb, dedi: "Yaxşı."

O şahın yanına daxil olduqdan sonra, biz çöldən mizin üzərinə dəyən yumruq səslərini eşidirdik. O əlini möhkəm şəkildə mizə vururdu və şaha deyirdi: "Yoxsa

müsəlman deyilsiniz? Nə üçün icazə verirsiniz qəzetlərdə bu kimi mövzular, yazılar çap olunsun?” Nəvvab şaha və onun ölkəni idarə etməsinə bir çox iradlar bildirdi, etiraz etdi.

O çölə çıxıb getdikdən sonra, şahın narahat olduğunu gördük. Şah dedi: “Bu seyid öz ixtiyarında olan əsgərlə danışan zabit kimi mənimlə rəftar etdi! Sanki heç şah deyilən biri yoxdur. Nə dünən yanımıza gələn, nə də bu seyid üçün sanki heç bir şah yoxdur.” Şah çox narahat olmuşdu.

## Mövlaya iqtida

1953-cü ildə İslam Fədailəri birliyində ixtilaflar yarandı və bəziləri birlikdən ayrılacaqlarını bildirdilər. Şəhid Nəvvab həmin şəxslərin qarşısında möhkəm dayanıb, dedi: “Kim istəsə üzvlükdən çıxa bilər, mən öz öhdəmdə olan vəzifəni tək yerinə yetirəcəyəm və heç kəsə ehtiyacım yoxdur.” İş o yerə çatmışdı ki, hətta Nəvvabın əleyhinə bəyanat verirdilər.

Bəyanat verən şəxslərdən biri Seyid Haşim Hüseyni idi. Seyid Haşim müctehid idi və Nəvvabın ona xüsusi hörməti var idi. O öz bəyanatında demişdi ki, Nəvvab İmam Zamanın (ə) düşmənidir. Şəhid Nəvvabın həyat yoldaşı deyir: “Hələ də xatırlayıram, cənab Hüseyninin bəyanatından sonra ağa o qədər güclü və şücaətli olmasına baxmayaraq 15 gecə sübhədək ağladı, o qədər ağlamışdı ki, gözləri qan bağlamışdı.

Əlbəttə o özünə görə, öz şəxsi mənafeyinə görə narahat deyildi, əksinə onun narahatçılığının səbəbi bir ruhaninin İslama zərbə vurması idi. Bu onun qəlbini sındırır, ona acı çəkdirirdi. Ağa o qədər məzlumcasına ağlayırdı ki, elə bir halda olurdu ki, mən ondan nə üçün ağladığını soruşmağa cəsarət etmirdim.”

Bir müddət sonra xəbər gəldi ki, Seyid Haşim möhkəm xəstələnib, ölüm yatağındadır. Şəhid Nəvvab bundan xəbər tutan kimi onun görüşünə getmək qərararına gəldi.

Mərhum Seyid Əbdülhüseyn Vahidinin Nəvvaba çox böyük məhəbbəti var idi, demək olar ki, ona aşiq idi. O Nəvvabın bu qərarına etiraz etdi və Seyid Haşimin rəftarlarını, sözlərini yada saldı. Lakin Şəhid Nəvvab dedi ki, hökmən ona baş çəkməyə gedəcək və bu işi gördü.

Şəhid Nəvvab Seyid Haşimin yanına getdi, xəstə yatağında olan Seyid Haşimə 70 dəfə Həmd surəsini oxudu və dua etdi. Qəfil Seyid Haşim inanılmaz bir şəkildə gözlərini açdı və yaxşılaşdı.

## Müsəddiqin əməlsiz şəxs olması

Müsəddiq vəzifəyə gəlməzdən öncə Nəvvab Ayətullah Kaşaninin iştirak etdiyi bir məclisdə Müsəddiqin gələcək proqramları haqda soruşdu və Müsəddiq belə cavab

verdi: “Siz hər nə istəsəniz o! Sizin bütün göztərişlərinizi icra edəcəm.” Nəvvab cavab verdi: “Biz heç bir vəzifə, post istəmirik. İstədiyimiz yalnız budur ki, ölkədə İslam proqramlarını icra edəsiniz.” Müsəddiq həmin məclisdə belə edəcəyi barədə söz verdi, lakin sözünə əməl etmədi.

1951-ci ildə Müsəddiq Baş nazir təyin olundu. Müsəddiq sarayla, əcnəbiləri yenidən ölkəyə hakim edə bilmək üçün fitnə törədən müxtəlif partiyalarla mübarizə əvəzinə Nəvvab Səfəviyə hücum etdi.

O vəzifəyə təyin olandan 8 gün sonra Nəvvabı həbs etdi, 20 ay həbsdə saxladı.

Nəvvab həbsxana qaranlığından Müsəddiqə tarixi bir məktub yazdı. O həmin məktubda Müsəddiqə belə müraciət edir: “Müsəddiq, sən bizim bir dünya yaxşılığımız qarşısında bir dünya xəyanət etdin.”

Sonralar Nəvvab Səfəvi Müsəddiqin yola gəlməsi üçün çalışdı, ona çox nəsihət etdi. O məktublarının birində Müsəddiqə belə deyir:

Huvəl-Əziz (O izzətlidir)

Cənab Baş nazir Doktor Məhəmməd Müsəddiq! Salamdan sonra demək istəyirəm ki, siz və ölkə çox böyük uçurum kənarındasınız. Sizin və ölkənin xilası girami Peyğəmbərin (s) müqəddəs proqramlarını icra etməkdədir. Keçmiş proqramları

dayandırdıqdan sonra, İslamın müqəddəs hökmlərini icra etməyə hazırlaşın. Söz verirəm ki, sizi və ölkəni qüdrətli Allahın köməyi və İslamın ali təlimlərinin icrası sayəsində bütün bədbəxtliklərdən, süqut və fəsadlardan qoruyacam, mənəvi və iqtisadi inkişafın ən yüksək pilləsinə çatdıracağam.

*Tehran*

*Qüd*rətli *Allahın köməyi ilə*

*Seyid Müctəba Nəvvab Səfəvi*

Bu qayda ilə Nəvvab bir daha Müsəddiqə öz vəzifələrini xatırlatmağa çalışdı, həmçinin həbs dövründən sonra ona qarşı yaxşı niyyətdə olduğunu sübut etdi. Lakin əslində Müsəddiq vəzifəyə təyin olunduqdan sonra İslam Fədailərinin heç bir problemi həll olunmadı. Əksinə, onlar həmkarlıq sözü vermiş Müsəddiqin dövlətindən zindan əzabından başqa heç bir pay almadılar və Müsəddiq sözlərindən heç birinə əməl etmədi.

O vəzifəyə çatan kimi, Xalq cəbhəsi İslam Fədailərinin əleyhinə psixoloji müharibəyə başladı. İlk addım olaraq Müsəddiq müsahibələrindən birində bildirdi: “Nə üçün İslam Fədailəri mənə qarşı terror planlayırlar?” Hətta belə bir söhbət

eşidilmişdi ki, Müsəddiq yaxın adamları ilə söhbətində demişdi: “İslam Fədailərini özümə ən böyük düşməni bilirəm”

Müsəddiq hətta İslam Fədailərinin məhkəməsində iştirak edəndə də, özünü elə göstərirdi ki, sanki Nəvvabı və onun dostlarını tanımır və onları indiyədək görməyib. O Nəvvabın baxışları qarşısında qəsdən özündən getdi və onu məhkəmədən apardılar.

## Əzəmətli qarşılanma

Nəvvab Səfəvi 1953-cü ilin fevral ayında həbsdən azad olundu. Onun vəfalı dostları Tehranın Sərçeşmə küçəsindəki evlərdən birini öz rəhbərlərini qarşılamaq üçün hazırlamışdılar.

İnsanlar dəstə-dəstə onu görməyə gəlirdilər. Küçələrin başında yaşıl bayraq asılmış və onun üzərinə belə yazılmışdı: “Huvəl-Əziz, Böyük Şərq İslam hərəkatının banisi, dahi insan, İslam Fədailərinin uca məqamlı rəhbəri həzrət Seyid Müctəba Nəvvab Səfəvinin qədəmləri bütün qeyrətlilərə mübarək olsun.”

Evin qapısının qarşısında biri sağda, biri solda dayanmış iki şəxs var idi. Hər ikisinin əynində eyni rəngli palto və eyni formada dəri papaq var idi. Onların sağ

qoluna bağlanmış yaşıl parçaya belə yazılmışdı: "İslam Fədailərinin mühafizə xidməti."

Həyətin üstünə cadır çəkilmişdi və həyət bütövlükdə xalça ilə örtülmüşdü. Divarlara da başdan başa xalça vurulmuşdu.

Eyvanda İslam Fədailərinin yaşıl rəngli böyük bayrağı asılmışdı. Bayrağın üzərinə belə yazılmışdı: "İslam hər şeydən üstündür və heç nə İslamdan üstün deyil."

Həyətin digər tərəfində Şəhid Nəvvabın böyük bir şəkili asılmışdı. Şəkildə onun yanında İmami də görünürdü. Şəhid Nəvvab eyvanda İslam Fədailərinin bayrağı altında oturmuşdu.

Hər bir şəxs gələndə, təvazökarlıqla yerindən qalxır, salamlaşdıqdan sonra İslam Fədailərinə məxsus şəkildə əl uzadırdı. Getmək istəyənlərlə vidalaşdıqdan sonra bir neçə dəfə deyirdi: "İslama vəfalı olun, qeyrətli övlad olun, İslama vəfalı olun."

Onu görməyə gələnlər arasında çox sayda cavanlar və azyaşlılar var idi. Onlar Nəvvabın qarşısında oturub ona tamaşa edirdilər. Şəhid Nəvvab onları gördükdə belə dedi: "Siz İslamın gələcəyinin rəşadətli övladlarısınız, İslamın nuru sizin çöhrənizdə görünür. İslam yolunda mücahid olmağa çalışın."

Şəhid Nəvvab Səfəvi ilə görüş bir neçə gün davam etdi, insanlar Tehrandan və digər şəhərlərdən dəstə-dəstə onu görməyə gəlir və onun İslam barəsindəki alovlu söhbətlərindən ruh alırdılar.

## İslam konfransında iştirak

Şəhid Nəvvab Səfəvi 1954-cü ilin yanvar ayında İslam konfransında iştirak etmək üçün İordaniyaya getdi. O bu konfransda çox təsirli bir söhbət etdi. Hətta İordaniya kralı  Məlik Hüseyn bu söhbətin təsiri nəticəsində İngiltərənin istehsalı olan avtomobilə minməkdən imtina etdi.

İslam konfransı başa çatdıqdan sonra, o bəzi İslam ölkələrinin rəhbərləri ilə birlikdə İordaniyanın müxtəlif bölgələrinə baxış keçirdi. Həmin baxış zamanı İsrail ilə İordaniya sərhəddində yerləşən və sionistlərin işğalı altında olan bir məscid gördülər.

Şəhid Nəvvab aralarında İndoneziyanın prezidenti Doktor Sukarnonun da  olduğu şəxslərə dedi: “İstəyirsiniz bu məsciddə namaz qılaq?” Onlar dedilər: “Bu məscid İsrailin işğalı altındadır və burada namaz qılmaq təhlükəlidir.” Nəvvab dedi: “Çox yaxşı, siz gəlməyin, tək gedəcəm.” Sonra əli ilə tikanlı telləri bir-birlərindən ayırdı və onların arasından keçdi. Yoldaşları onun cəsarətini gördükdən sonra, hamısı onun arxasınca məscidə daxil oldular və Nəvvabın imamlığı ilə camaat namazı qıldılar.

Maraqlıdır ki, Nəvvabdan imam camaat olmasını istədikdə, Nəvvab onlara belə dedi: “Mən şiə olduğum üçün İmam Cəfər Sadiqin (ə) üsulu ilə namaz qılıram. Əgər mənə iqtida etmək istəsəniz, gərək şiələr kimi namaz qılasınız.”

Əhli-sünnə olmalarına baxmayaraq, oradakıların hamısı Nəvvabın təklifini qəbul etdilər və şiə kimi ona iqtida etdilər.

Məscid İsrailin mühasirəsində idi və onlar ağır silahlar ilə məscidə nəzarət edirdilər. Buna baxmayaraq İslam ölkələrinin dini və siyasi rəhbərləri Şəhid Nəvvabın rəhbərliyi ilə “İsrailə ölüm” və “Qüdsə azadlıq” şüarları ilə məsciddən xaric oldular.

Həmin vaxt Sukarno Nəvvaba dedi: “Cənab Nəvvab siz nə etdiniz? Bizi gətirmisiz buraya, indi hamımızı öldürəcəklər!” Nəvvab özünə məxsus cəsarətlə belə cavab verdi: “And olsun cəddimə, sizin hamınızı bura ona görə gətirmişəm ki, hamımız birlikdə qətlə yetirilək və nəticədə bizim ölümümüz müsəlman xalqların ayılmasına səbəb olsun və onlar cinayətkar İsrailin zülmünə qarşı qiyam etsinlər.”

## Azan səsi

*Fəthi Yekən*

Bir gecə Beytül-müqəddəsdəki Qala otelində sübhədək Nəvvabın söhbətlərini dinlədik.

Nəvvab gah ucadan, gah ahəstə danışırdı, qəfil müəzzinin “Allahu əkbər” nidası ucaldı. Sanki Nəvvabın bütün bədəni titrədi, sonra aramlaşdı, başını aşağı saldı. Özünə elə qapandı ki, onu heç vaxt belə görməmişdim:

O bütün vücudu ilə müəzzinin dediklərini təkrarlayırdı, sanki başqa bir aləmdə idi. Üzünə baxdım, gözlərindən yaş axırdı. Soruşdum: “Nəvvab! Nə olub?” O ağlayaraq, dedi: “Ey qardaş, and olsun Allaha hər dəfə azançının “Allahu əkbər” səsini eşitdikdə, dünya gözümdə o qədər rəngsiz, dəyərsiz olur ki, sanki kiçik bir milçəkdir, onu ayağımın altında əzib, yoluma davam edə bilərəm. Artıq Allahın əzəmət və qüdrətindən başqa heç nə hiss etmirəm.”

## Məlik Hüseynlə görüş

İslam konfransı başa çatdıqdan sonra,  əcnəbilərin, yadların adamı olan İordaniya kralı Məlik Hüseyn qonaqları dəvət etdi, kütləni aldatmaq və xalq arasında hörmət qazanmaq üçün bir neçə saat onlarla vaxt keçirdi.

Həmin görüşdə Nəvvab Şah Hüseynlə o qədər izzətlə, qətiyyətlə rəftar etdi ki, Şah onun belə münasibətindən heyrətləndi.

O Şah Hüseynlə görüşdə dedi: “Mən indiyədək şahlardan heç biri ilə görüşməmişəm, indi də təsadüf nəticəsində sənlə görüşməyə məcbur olduğum üçün

təəssüflənirəm. Lakin Quranla istixarə etdim və istixarə yaxşı gəldi, elə bu səbəbdən görüşünə gəldim ki, bəlkə İslamın xeyrinə ola və bu arada səni nəsihət etmiş olaram.”

Sonra dedi: “Əziz əmioğlu, özünü, dinini və millətini yaxşı qoru. Gərək İslam cəddimiz həzrət Məhəmmədin (s) dövründəki öz parlaq, əzəmətli dövrünə qayıtsın. Sən gərək heç kəsdən qorxmayasan. Gərək Fələstinin nicatı üçün çalışasan. Biz hamımız Fələstinin qaçqın müsəlmanlarına hörmət etməli, sevgi bəsləməliyik.” Daha sonra belə davam etdi: “Ey əmioğlu, evlərin damında buğda əkmək, ölkənizin idarəsi üçün İslamın, müsəlmanların düşmənlərinə əl uzadıb, ağız açmaqdan daha yaxşıdır.”

Həmin görüşün sonunda Məlik Hüseyn gülümsəyib, vidalaşdı, Nəvvab Səfəvi və digər İslam ölkələrinin nümayəndələri oradan xaric oldular.

## Şahın təklifinə cavab

Hicri-şəmsi 1332-ci ildə, Nəvvabın İordaniyadakı İslam konfransına, Misirə səfərindən, Qahirədə alovlu söhbətlərindən və Misir inqilabçıları ilə görüşlərindən sonra (bu görüşlər dünyada xüsusi ilə məntəqədə böyük səs saldı) Şahın nigaranlığı bir neçə qat artdı.

Odur ki, Nəvvab uyğun faydalı, uğurlu və fəxr ediləsi səfərdən qayıtdıqdan sonra Tehranın imamcüməsi Seyid Həsən İmami Nəvvabdan görüş istədi və onu görmək üçün Dolabdakı evinə getdi.

Doktor İmami Şah tərəfindən Nəvvaba 100 min tumən pul gətirmişdi, o dedi: "Əlahəzrət göstəriş verib ki, siz bu pulu İslam Fədailərinə və öz şəxsi xərclərinizə sərf edəsiniz. O sizi dəyərləndirmək üçün İmam Rza hərəminin müdiriyyətini sizə tapşırır və oranın gəlirini öz bildiyiniz kimi xərcləməyə tam ixtiyarlısınız və eyni zamanda Əlahəzrətin tam himayəsinə maliksiniz. Lakin bütün bunlar qarşısında yeganə bir şərti var: Ölkənin siyasi işlərinə müdaxilə etməyəsiniz."

Şəhid Nəvvab Səfəvi həmin zaman iqtisadi baxımdan yaxşı vəziyyətdə deyildi, maddi sıxıntısı var idi. O imamcümənin sözlərini eşitdikdən sonra, qəzəbləndi, pulları bir dünya hirslə ona tərəf tullayıb, dedi: "Əmioğlu, sənə dediyim sözləri eynən olduğu kimi həmin Pəhləvi tulasına çatdır.

Ona deyin ki, sən vəzifə, məqam və pulla məni aldadıb, Allahın dini və İslam ölkəsi ilə istədiyini etmək istəyirsən?! Bu mümkünsüzdür.

Biz sənin kimi İslam düşməni ilə damarlarımızdakı son damla qanımızadək vuruşacağıq. Mən ya sənin  beynini dağıdıb, cəhənnəmə göndərəcəyəm və özüm behiştə gedəcəyəm, ya da ki, sən məni öldürəcəksən və bu cinayətinlə yenə də sən

cəhənnəmə gedəcəksən və mənöz arzuma, şəhadətə çatıb, behiştə, əcdadımın qucağına atılacağam. Hər halda nə qədər ki, diriyəm sükut etməyim mümkünsüzdur, nə qədər ki, həyatdayam sənin istədiyini etməyinə göz yummağım mümkünsüzdür.”

## Yasir Ərafatın təsirlənməsi

*Əsədullah Səfa*

İnqilabdan sonra mərhum Xəlxali ilə bəzi qonşu ölkələrə səfər edirdik. Bu səfərlərdən birində Yasir Ərafatı görməyə getdik. Görüşümüzdə Yasir Ərafat mərhum Xəlxaliyə dedi: “Yanındakılarla bizi tanış et.” Mərhum Xəlxali Yasir Ərafata dedi: “Bu, Şəhid Nəvvab Səfəvinin dostlarındandır.” Yasir Ərafat Nəvvabın adını eşidən kimi, halında dəyişiklik baş verdi. İki dizi üstə oturdu və əlləri ilə üç dəfə dizinə vurub dedi: “Nəvvab, Nəvvab, Nəvvab.” Biz hamımız onun belə etməsindən təəccübləndik! Bu barədə ondan soruşduq və o bizə bir əhvalat danışdı. Ərafat dedi ki, Nəvvab Səfəvi çıxış etmək üçün Misirin Əl-əzhər universitetinə gələndə mən orada dərs oxuyurdum. Nəvvab Səfəvi 20 dəqiqə çıxış etməli idi, lakin bir saat yarım alovlu söhbət etdi. Orada iştirak edənlər bütün vücudları ilə ona qulaq asırdılar.

Mən onun alovlu söhbətinin təsirinə düşmüşdüm, söhbətdən sonra onunla danışmaq üçün yanına getdim. Mühafizəçilər kimsənin ona yaxınlaşmasına icazə vermirdilər, lakin Nəvvab mənim əlimdən tutdu və birlikdə onu aparan maşına mindik.

Yolda məndən soruşdu: "Adın nədir?" Adımı dedim. Sonra dedi: "Burada nə edirsən?" Dedim: "Gəlmişəm mühəndis olmaq üçün dərs oxumağa."

Bunu dedikdən sonra, Nəvvab əsəbi şəkildə mənə müraciət etdi: "Fələstin sionizm və Amerikanın ayaqları altında can verir və sən mühəndis olub, rahat yaşamaq fikrindəsən? Nə üçün vuruşmursan, nə üçün?

Kişi, hərəkət et, tərpən, kişi ol. Kişi ölkəsinin yadların tapdağı olmasına icazə verməz. Siz hal-hazırda dünyada ən xar olmuş xalqlardansınız, çünki şəhərinizin küçələrində yadlar at çapır.

Azad yaşayın, müstəqil olun, vuruşun. Şərafətli ölüm zillətlə yaşamaqdan yaxşıdır. Fələstinin sionistlərin işğalı altında olduğu halda bir fələstinlinin Qahirə universitetində dərs oxumağı ayıbdır. Bu həmişə şəhadətə hazır olmalı bir müsəlman üçün ardır.

İsraillilər namusunuza təhlükə yaradıblar və sən gəlmisən burda dərs oxumağa?! Get xalqınla birlikdə onları Fələstindən çıxart və onlarla mübarizə apar, cihad et.

Qayıt, qayıt döyüş, ya ölkəni azad et, ya öl. Belə həyatdan ölüm daha şərəflidir.”

Ərafat dedi: “Həmin hadisədən illər ötməsinə baxmayaraq Nəvvabın səsi hələ də qulağımdadır, məni mübarizəyə və cihada dəvət edirdi. Nəvvabın söhbətlərindən sonra İsraillə mübarizə üçün qrup yaratmaq, dəstə yığmaq fikrinə düşdüm.”

## Mehriban ata

*Nəyyirətüssadat Ehtişam Rəzəvi*

İkinci qızımız ağır xəstələnmişdi, eyni zamanda üç qızılca, sətəlcəm və tetanus xəstəliklərinə düçar olmuşdu, bədənində üfunət yaranmışdı. Çöp kimi qurumuşdu, həkim dərman yazdı, uşaq dərmanları istifadə etdikdən sonra bir qədər yaxşılaşdı.

Sübh namazından sonra gizlicə Qumdan Tehrana getməli idik. Ağa uşağı ədyala bükmüşdü. Hərəmə yaxınlaşdıqda, o Həzrət Məsumənin (s) hərəminə tərəf çevrildi və dodağının altında, yavaşcasına ərəbcə bəzi sözlər dedi. Sözlərinin əvvəli belə idi: “Məvlati, əmməti.” O Həzrət Məsumə ilə elə bir şəkildə danışırdı və elə bir xüsusi halda idi ki, mən onun Allahdan uşaq üçün şəfa istədiyini hiss etdim.

Uşaq heç hərəkət etmirdi və can tapşırana oxşayırdı. Yolun ortasında uşağın hərəkət etdiyini gördüm, əmziyini axtarırdı. Bunu gördükdə ağa çox sevindi. O yol boyu uşaqı əllərinin üstünə qoymuşdu. Mən dedim: “Bir az əllərinizi aşağı salın, ya da

uşağı qucağınızda saxlayın.” Lakin o dedi: “Maşının hərəkət etməsi, tərpənməsi uşağı narahat edir.” O bütün yolu əllərini yuxarıda saxladı. Cənab Nəvvab olduqca mehriban idi.

## Çap üçün məqalə

*Əbülqasim Dolabi*

Mərhum Nəvvab mənə bir məqalə verib dedi ki, onu çap etdirmək üçün “İttilaat” və “Keyhan” müəssisəsinə gedim. Sonra məndən soruşdu: “Yaxşı, necə gedəcəksən?” Dedim: “Gedib deyəcəm ki, cənab Nəvvab tərəfindən yazı gətirmişəm.”

Ağa dedi: Yox, əgər belə desən qapının ağzından icəri buraxmazlar. Möhkəm de ki, Nəvvab Səfəvi tərəfindən gəlmişəm, hamını bir kənara çək, hansı qapıda qarşını kəssələr, möhkəm de, Nəvvab Səfəvi tərəfindən gəlmişəm və keç. Onlar özləri yol göstərəcək. Müdirin yanına çatdıqda da, de ki, bu yazı böyük başlıq altda birinci səhifədən çap olunmalıdır, əgər bacarmasanız, məqaləni geri qaytarın.”

Bu vaxt mənim 11 yaşım var idi və belə bir yerə gedib, belə bir rəftar etməli idim. Öz velosipedimlə o dövrdəki torpaq küçələrlə Topxanaya tərəf yola düşdüm. Yol boyu pencək-şalvarımın arxası palçıq olmuşdu. Həmin vəziyyətdə içəri keçdim və cənab Nəvvabın dediyi tərzdə xüsusi arxayınçılıq və izzətlə özümü müdirin yanına

çatdırıb, dedim: “Cənab Nəvvab göstəriş verib ki, bu məqalə nəşr olunsun.” Nəvvab Səfəvinin adını eşidən kimi ayağa qalxıb, dedi: “Mənim salamımı ona çatdırın və deyin ki, ilk səhifə dünəndən dolub.” Dedim: “Ağa buyurdu ki, əgər mümkün olmasa, məqaləni alıb geri qayıdam.” O bir qədər fikirləşib, dedi: “Baş üstə, baş üstə.” Məqaləni məndən aldı. Bu qayda ilə Keyhan müəssəsinə getdim onlarda məqaləni çap etmək üçün aldılar.

## Ailədə təvazökar

Şəhid Nəvvab Səfəvinin həyat yoldaşı Nəyyirətüssadat Ehtişam Rəzəvi deyir: “Ağa çox mehriban idi. O ölkənin məsələləri və şahın cinayətləri barəsində dostları ilə söhbət edəndə nəfəsinin gücündən divar titrəyirdi, lakin mənimlə son dərəcə mülayim, aram söhbət edirdi.

Təəccüblənib, deyirdim: “Yoxsa bir qədər əvvəl fəryad çəkən siz deyildiniz? Bəs nə üçün bu qədər dəyişdiniz?”

Belə buyururdu: “Mən kiməsə görə əsəbləşmişəmsə, əsəbimi, hirsimi sizin üzərinizə tökməməliyəm. İnsan ailəsinə qarşı kobud rəftar etməməlidir.”

Mən cənab Nəvvabla birgə həyatımız dövründə onun tərəfindən azca belə kobudluq, əziyyət görmədim. Şəhid Nəvvab Səfəvi mənimlə olduqca mehriban idi və

mehribanlığını göstərmək üçün gözəl ifadələrdən istifadə edirdi. Mən o qədər şücaətli, cəsarətli və ciddi bir insanın ruhi baxımdan bu dərəcədə incə, həssas olmasını gözləmirdim.

O eyni zamanda bütün müsbət xüsusiyyətlərə sahib idi. Şücaətli, cəsarətli, səxavətli, lətif, kəramətli, mücahid, dünya malına maraqsız, fədakar!

## İmam Mehdinin (ə) elçisi

Ayətullah Taliqaninin təklifi ilə Nəvvab kəndlər və dağlıq ərazilərdən ibarət olan Taliqana getməyi qərarrına gəldi. Onun təklif etdiyi kəndin adı Verkəş idi.

Nəvvab həmin kəndə daxil olmamışdan öncə, kəndli bir qadının oğlu məscidə gedir və orada gözəl simalı, vüqarlı bir seyid görür. Oğlan Taliqan dili ilə ona deyir: “Ağa, gəlin bizim evimizə, bizim üçün rövzə oxuyun.” Həmin şəxs buyurur: “Mən rövzə oxumuram.” Sonra ətraf kəndlərə işarə edərək deyir: “Dörd gün sonra mənim tərəfimdən bir nəfər gəlib sizi və ətraf kəndləri bəhrələndirəcək.” Həmin yeni yetmə bir anlıq ətraf kəndlərə baxır və gözünü ətrafdan çəkdikdə, seyidin orada olmadığını görür. Ətrafı, məscidin daxilini hər nə qədər axtarırsa, ağanı görmür.

Oğlan bu əhvalatı anasına danışır, anası ona deyir ki, bu məsələni heç kəsə demə, o İmam Zaman (ə) imiş. Həmin hadisədən dörd gün sonra Nəvvab Səfəvi həmin kəndə gedir və özünü Seyid Əli Əsğər adı ilə tanıtdırır.

## Mədəniyyət formalaşdırmaq

Nəvvab Səfəvi Taliqanın ətraf kəndlərini gəzərkən, ona məlum oldu ki, hal-hazırda olduğu kəndin bir-iki evindən başqa heç bir evdə tualet yoxdur. Kəndin sakinləri tualet kimi çayın kənarından istifadə edirdilər.

Mərhum Nəvvab bu məsələdən çox narahat oldu, əsəbləşdi. Kənd əhalisini bir yerə toplayıb onlara müraciət etdi: "Bəs sizin qeyrətiniz haradadır? Bu düzdür ki, çayın bir tərəfindən qadınlar, o biri tərəfindən kişilər öz təbii ehtiyaclarını ödəmək üçün istifadə etsinlər? Bu düzgün deyil. Sağlamlıq baxımından da zərərlidir, çünki həm yaşadığınız məkanın, həm də çayın çirklənməsinə, bulaşmasına səbəb olur. Şəri və namus baxımından da çox pisdir. Odur ki, sabah kənddə bütün işlər tətil olur və heç kəs iş dalınca getməməlidir. Sabah kənddə hər bir şəxs tualet düzəltməyə başlamalıdır."

Şəhid Nəvvab bir mühəndis kimi ayaqyolu düzəltməyi, quyu qazmağı kənd əhalisinə öyrətdi. Bir gün ərzində təqribən 50-60 tualet quyusu qazıldı və ayaqyolu tikildi. Kəndin böyükləri Nəvvaba dedilər: "Rıza xan vaxtından bu günədək

jandarmlar kənd əhalisinə bu barədə hər nə qədər tövsiyə etsələr də heç bir təsiri olmamışdı. Lakin sizin cazibəli nitqiniz hamının sözünüzə itaət etməsinə və nəticədə bütün kənd əhalisinin evində tualet tikilməsinə səbəb oldu.”

## Haqq aşiqi

*Nəyyirətüssadat Ehtişam Rəzəvi*

Ağa rüku və səcdələrdə zar-zar ağlayar, ibadət zamanı qəribə halda olardı. Onu görən hər bir şəxsdə təəccüb doğururdu. Bəzən rükusu iki saat çəkirdi.

O əksər hallarda oruc olurdu, lakin kiminsə bundan xəbərdar olmamasına çalışırdı, bəzən mənim özümdən də gizlədirdi. Hətta bir çox hallarda obaşdan yeməmiş oruc tuturdu. Gecə namazını tərk etməzdi, onun Quran avazı eşidənləri cəzb edirdi.

Aşura ziyarətnaməsini heç vaxt unutmazdı. Ziyarətnamə oxuduqda sanki Aşura savaşında idi, sanki Həzrət Seyyidüş-şühədanı yaxından görürdü. Həmişə deyirdi: “Kaş Aşura günü cəddimin yanında şəhid olaydım.” Qunutlarda və səcdə dualarında həmişə Allahdan şəhadət istəyərdi.

Ağa gecə yarısı adətən çölə gedərdi, Allahla minacat edərdi və qayıdanda elə bir halda olardı ki, sanki İmam Zamanla (ə) görüşmüşdü. Bəzən də gecələr evin banına çıxar və gizlicə raz-niyaz edərdi.

Bütün bunları görəndə mən ağlayır, Allahla raz-niyaz edərək deyirdim: “İlahi, sən bizim həyatımızdan xəbərdarsan. Sən bilirsən ki, Nəvvab həqiqi bir müsəlmandır və o Sənə aşiqdir. Lakin düşmən deyir ki, o ingilislərdəndir! Hansı ingilispərəst gecə namazı qılır, oruc tutur? Bunlar sadə bir yeməklə keçinirlər, lakin mücahiddirlər və nahaqqa, batilə göz yuma bilmirlər.”

## Şübhələrə cavab

İslam Fədailəri silahlı qiyam ilə öz siyasi mübarizələrini davam etdirdikdə, hövzə, dini qurumlar, əksər mərcələr və alimlər onların bu işlərini çox pis hesab edir və silahdan istifadə etməyi, öldürməyi tam şəkildə pisləyir və fədailərin atdığı addımlar barəsində bir çox sözlər deyirdilər.

Şəhid Nəvvab Səfəvi fədailərin rəhbəri olaraq onlara qarşı olan irad və ittihamlara belə cavab verirdi: “Bizim bunları öldürmək üçün şəri hakimdən icazə almağa ehtiyacımız yoxdur, bunlar İslama və müsəlmanlara hücum ediblər və hücum qarşısında müdafiə edə bilən hər şəxs üçün müdafiə etmək vacibdir; bunu İslamın bütün fəqihləri deyir.” O deyirdi: “Əgər gecəyarı evinizə əlisilahlı oğru daxil olsa, silahı ilə malınıza, namusunuza, canınıza təcavüz etsə, bu vaxt, gecə yarı müctehidin evinə yollanıb, ondan özünüzü müdafiə etmək üçün icazə alacaq, sonra evdə buraxıb

getdiyiniz silahlı oğrunun yanına qayıdıb, müctehidin icazəsi ilə özünüzü müdafiə etməyə başlayacaqsınız?!"

Nəvvab deyirdi: "Təcavüzün qarşısını almağın yeganə yolu bunları öldürməkdir və biz bunların hamısını bir dəfəyəöldürə bilmədiyimiz üçün nümunə olaraq, qorxutmaq, sözümüzü yeritmək üçün belə edir, bu qayda ilə şahın zalım rejiminə və onun xarici müdafiəçilərinə mesajımızı göndəririk, bu isə öz təsirini buraxır."

O yenə belə deyirdi: "Şahdan tutmuş bütün dövlət işçiləri vəzirlər, vəkillər və başqa məqam sahibləri, dünyapərəstlər və şəhvətpərəstlər çox qorxaqdırlar. Çünki bu torpağa çevriləsi bədənlərini, dünyada yığdıqlarını hər şeydən çox sevirlər və bu şeylər üçün təhlükə gördükdə təslim olurlar."

## Sonuncu görüş

Müzəffər Zülqədr Nəvvab Səfəvi tərəfindən satılmış və xain Baş nazir Hüseyn Əlanı qətlə yetirməyə göstəriş aldı.

Zülqədr Ayətullah Kaşaninin övladının vəfatı münasibəti ilə keçirilən məclisdə öz vəzifəsini yerinə yetirdi. Lakin silah köhnə olduğu üçün düzgün, dəqiq atəş açılmadı. Müzəffər Zülqədr əsəbindən silahı Əlanın başına çırpdı, onu həbs etdilər.

Zülqədr ilə birlikdə Nəvvab Səfəvi, Xəlil Təhmasibi, Məhəmməd Vahidi də həbs olundular, bu onların sonuncu həbsi idi. Onlar rejimin yalançı məhkəməsidən iki ay sonra, Dey ayının 27-də edam olundular.

Şəhid Nəvvabın övladı Fatimə Nəvvab Səfəvi atası ilə sonuncu görüşü barəsində belə deyir: "Kiçik bir otaqda anam, nənəm və bacımla oturmuşduq. Bir müddət sonra atamı gətirdilər. Onun sağ qolu qandalla bir əsgərin qoluna bağlanmışdı.

Çoxlu işgəncələrə baxmayaraq üzündə təbəssüm var idi, çöhrəsi nurani idi. O gülər üzlə, qandallı əlləri ilə məni və bacımı qucaqladı, anama və nənəmə salam verdi. O nənəmlə bir qədər danışdı, nənəm ona dedi: "Ey kaş əvvəl biz öləydik, sonra siz özünüzü ölümə verəydiniz." Atam onun sözünə təəccüblənib, dedi: "İslamın əvvəllərində bir qadın, dörd oğlunun Peyğəmbərin yanında şəhid olmasına baxmayaraq, Peyğəmbərin yanına gedir və dörd övladının başına nə gəlməsini soruşmamış, Həzrətdən onun öz halını soruşur... Ana, ürəyim istəyir İslamın əvvəlindəki analar kimi möhkəm və səbirli olasan."

Sonra anam soşurdu: "Nə göstəriş verirsiniz, biz nə iş görməliyik?"

O belə cavab verir: "Həzrət Zeynəb (s) kimi səbirli olun və müsibətlər qarşısında möhkəm dayanın, dözümlü olun."

Mənim 5, bacımın 2, özünün də  hamilə olmasına baxmayaraq atama edam hökmü verildikdən sonra, anam hər bir yerə, elmi və siyasi məqamı olan hər bir şəxsin yanına getdi, amma bir cavab almadı.

Daha sonra atam yenidən bizi nəvaziş etdi və bir hərbiçinin söhbətlərimizə nəzarət etdiyi halda, açıq-aşkarcasına dedi: "Əgər mən bu alçaq Məhəmmədrza ilə razılaşmaya gəlsəm, yerim bura olmayacaq, lakin bizi dünya bər-bəzəyi aldada bilməz." Sonda atam mənə bir paçka birtümənlik verdi, mən o pulları yadigar kimi saxlamışam. Onu aparanda geri döndü, mənə və bacıma baxırdı... Son baxışlardan!

## Əlanın hökuməti İslama hücumun nümunəsidir

2-ci istintaqın protokolu

Seyid Müctəba Nəvvab Səfəviyə verilən suallar

Tarix: Noyabr,1995

Sual: Müzəffər Zülqədr bildirir ki, cənab Nəvvab Səfəvi silaha güllə qoydu, "Bismillahir-rəhmanir-rəhim" deyib, mənə müraciət etdi: "Al, apar, işinin sonu behiştdir." Sonra onu mənə verdi.

Adı çəkilmiş şəxsin cənab Ələnı qətlə yetirmək üçün sizin ona silah verməniz barədə bildirdikləri doğrudurmu?

Cavab: Əvvəldə qeyd etdiklərinizi aşağıdakı kimi xülasələşdirirəm: “Allahla döyüşənlərlə döyüşürəm və Allahla dost olanları sevirəm. Quranın hörmətinin tapdanmasına və İslamın alçalmasına səbəb olan hökumətlər barəsində əqidəm budur ki, ümumiyyətlə bu hökumətlər qəsbi və qeyri-qanunidir; bu hökumətlərin müsəlman millətlərinin işlərinə bütün müdaxilələri qeyri-qanuni və batildir. İslamı müdafiə hökmünün zəruriliyi və bu hökumətlərin daim İslam və müsəlmanlara etdikləri hücumlara görə, həmin təcavüzkar hökumətlər qarşısında İslamın və müsəlmanların hüququnu müdafiə etmək vacibdir.

Ələnın hökuməti də həmin hökumətlərdən biri olub. Xüsusilə batil Bəhailik firqəsi barəsində ruhanilərin göstərişlərinə itaətdə süstlük göstərməsi buna dəlildir. Bu baxımdan ruhaniyyət aləminə təhqirlər rəva gördü. Onun hökuməti İslama hücumun nümunələrindən biri idi.

Cənab Zülqədrin atdığı addım müdafiə nümunələrindəndir və mən bu addımla razı idim, öz razılığımı bildirmişdim və dini baxımdan müdafiəyə vəzifəli idik. Cənab Müzəffər Zülqədrə demişdim ki, fiqhi nəzər budur ki, ümumi hökmü cameüş-şərait

fəqih bildirməlidir, lakin nümunə təyin etmək vəzifəli şəxsin öz öhdəsindədir... Qüdrətli Allahın köməyi ilə, Seyid Müctəba Nəvvab Səfəvi"

## Şükür səcdəsi

*Əsğər Əmiri*

Şəhid Nəvvab Səfəvinin ilk məhkəməsi 1995-ci ildə, dekabrın sonlarında keçirildi. Bu məhkəmə təxminən səkkiz gün davam etdi. Bu müddətdə Şəhid Nəvvab özünün və İslam Fədailərinin haqq yollarını ləyaqətlə müdafiə etdi.

Səkkiz gün mühakimədən sonra sonuncu gün günorta onları yemək və namaz üçün kameralarına göndərdilər. Təqribən bir saat sonra məhkəmənin hökmünü oxumaq üçün onları yenidən məhkəmə salonuna qaytardılar. Hökm belə idi: İslam Fədailəri cəmiyyətinin 8 üzvünün cinayəti bunlardır: Hökumət əleyhinə silahlı qiyam, xalqı silahlanmağa çağırmaq, icazəsiz silah daşımaq. Bu səbəbdən cinayət məcəlləsinin 317-ci maddəsinə əsasən Seyid Müctəba Səfəvi, Seyid Məhəmməd Vahidi, Xəlil Təhmasibi, və Müzəffər Zülqədr edama, Seyid Hadi Mirlovhi, Əsğər Əmiri, Əhməd Abbasi Tehrani və Əli Bəhaduri bir və iki dərəcə yüngülləşdirmə ilə, ardıcıl olaraq 3,4,5 və 6 il həbsə məhkum olunurlar.

Məhkəmənin hökmü oxunduqdan sonra Nəvvab, Vahidi, və Təhmasibi möhkəm güldülər. Prokuror təəccüblə soruşdu: “Nəyə gülürsünüz?” Vahidi cavab verdi: “Nə üçün gülməyək ki, bu ruhani, mənəvi səfərdə dostlarımızla bir yerdəyik.” Onlar hələ Vahidinin verdiyi cavabdan donub qalmışdılar ki, bu an Nəvvab məhkumlar mizinin arxasından qalxıb məhkəmənin ortasına gəldi və şükür səcdəsi etdi.

Doğrudan da qəribə bir mənzərə idi. Hamı donub qalmışdı, bu rəftarların mənası nədir? Nəvvabdan soruşdular: “Nə üçün şükür? Siz ölümə məhkumsunuz!” Cavab verdi: “Bir ömürdür Allah yolunda şəhadət arzulayıram, hər dəfə namazımın qunutunda onu istəyirəm və bu gün mənə nəsib olub nə üçün Allaha şükür etməyim?” O bu hərəkəti ilə məhkəmə nümayəndələrinin acizliyini, xarlığını sübut etdi və bütün dünyaya sözünü dedi.

Ertəsi gün İslam Fədailərinin üzvlərini apellyasiya məhkəməsinə apardılar.

Bu məhkəmə 1956-cı ilin 13 yanvarında keçirildi. Məhkəmədə Nəvvab və onun dostları odlu çıxış etdilər.

Onlar artıq dünyaya arxa çevirmişdilər və özlərini Haqla görüşə hazırlayırdılar. Müdafiəçi vəkil Vahidiyə etiraz edib dedi: “Nə üçün belə danışırsan? İstəyirsən səni

öldürsünlər?” Vahidi belə cavab verdi: “Qardaşların və dostların şəhadətindən sonra həyat mənim üçün səfasızdır.”

Nəhayət yanvarın 15-i apellyasiya məhkəməsi başa çatdı və bu məhkəmə də ilk məhkəmənin hökmünü təsdiqlədi.

Hərbi tribunalın qanununa görə apellyasiya məhkəməsində məhkumlar etiraz haqqına malik idilər. Onlar 10 gün ərzində məhkəmənin verdiyi hökmə yenidən baxmasını tələb edə bilərdilər.

Edama məhkum olunmuş üç nəfərdən başqa hamısı məhkəmədən hökmü dəyişməsini, hökmə yenidən baxmasını istədilər. O üç nəfər artıq dünyadan, müsibətlərdən, namərdliklərdən, İslama olan hörmətsizliklərdən yorulmuşdular. Hər an şəhadət arzulayırdılar. Bu iddianın sübutu Nəvvabın sonuncu həbsdən qabaq Həzrət Seyyidüş-şühəda Əba Abdullah İmam Hüseynə (ə) yazdığı məktub idi. O cənab Nəimabadinin böyük alimlərdən olan qaynatasından istəmişdi ki, həmin məktubu İmam Hüseynin pak hərəmində zərihin içinə atsın. Cənab Nəimabadinin həyat yoldaşının atası o zaman Kərbəlaya səfərə hazırlaşırdı.

Həmin məktubun bir cümləsi belə idi: “Artıq qəm-qüssələrə dözə bilmirəm. Sizin yanınıza gəlmək istəyirəm...”

Məhkəmədən sonrakı gecə onları işgəncəyə apardılar. Hicri-şəmsi 1334 cü il dey ayının 27-si (1956, 18 yanvar) sübh azanı vaxtı onları güllələdilər. Bu zaman onların hamısı azan deyirdilər.

Şahidlərdən biri deyir: "Onların azanı "Əşhədu ənnə əliyyən vəliyyullah" cümləsinə çatanda, atəş əmri verildi. Həmin qanlı sübh İslam Fədailərinin bayraqdarı, Həzrət Seyid Müctəba Nəvvab Səfəvi və dostlarının pak bədənləri qana bulaşdı və onlar öz böyük arzuları olan şəhadətə qovuşdular."

Ruhları Həzrət Seyyidüş-şühədanın qonağı olsun və yolları əbədi olaraq davam etdirilsin!